HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 MART 2019-CU İL/ №006 (86)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



SƏLƏFLƏR VƏ XƏLƏFLƏR

3



BƏS HARDADIR SİZİN ƏDALƏTİNİZ?

5



MÜƏLLİMLƏRDƏ MƏMNUNİYYƏTSİZLİK SİNDROMU

6



ნოვრუზ ბაირამი

## PREZİDENT SALOME ZURABİŞVİLİ QARDABANİDƏ NOVRUZ ŞƏNLİYİNƏ QATILIB



Gürcüstan prezidenti Salome Zurabişvili Qardabanidə Novruz bayramı münasibətilə təşkil olunmuş şənlikdə iştirak edib.

Prezident azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik edərək onlara cansağlığı, xoşbəxtlik, tərəqqi və əmin-amanlıq arzulayıb.

"Novruz bayramı bahar bayramıdır. Siz bayramın qeyd olunması ənənəsini davam etdirirsiniz. Bahar münasibətilə sizi təbrik edirəm. Mən burada qonaq deyiləm, mən öz evimdəyəm. Çox xoşbəxtəm ki, bayramı sizinlə qeyd edə bilirəm. Adət-ənənələrin yaşadılması çox vacibdir və bu, Gürcüstanın ən güclü tərəflərindən biridir", - deyə S.Zurabişvili çıxışı zamanı bildirib.

Prezident Novruz bayramı münasibətilə təşkil olunmuş xalq gəzintisində iştirak edib, bayramın adət-ənənələri, Bahar qızı və Kosa ilə tanış olub, yumurta döyüşdürüb və bayram tonqalını yandırıb.

El şənliyinə Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Qardabani rayonunun icra başçısı Ramaz Budağaşvili, Gürcüstan parlamentinin deputatı Savalan Mirzəyev və digər rəsmi şəxslər də qatılıblar.

## NATO-NUN BAŞ KATİBİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB

NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstana rəsmi səfəri çərçivəsində "NATO-Gürcüstan 2019" təlimləri ilə tanış olub.



Baş katib Gürcüstanın baş naziri Mamuka Baxtadze ilə birgə təlimlərin keçirildiyi NATO-Gürcüstan Birgə Təlim və Qiymətləndirmə Mərkəzinə (JTEC) baş çəkib.

Y.Stoltenberq təlimlərin idarə olunması mərkəzində olub. Ona "NATO-Gürcüstan 2019" təlimlərinin əsas məqsədləri və iştirakçı ölkələr barədə məlumat təqdim olunub.

NATO-nun baş katibi həmçinin hərbi əməliyyatlar zamanı yaralanmış gürcü hərbçilərlə də görüşüb.

Qeyd edək ki, "NATO-Gürcüstan 2019" çoxmillətli komanda-qərargah hərbi təlimlərinə mart ayının 18-də start verilib. Martın 29-na qədər davam edən təlimlərdə 24 ölkə - Albaniya, Belçika, Bolqarıstan, Çexiya, Almaniya, Danimarka, Estoniya, Fransa, Yunanıstan, Böyük Britaniya, Macarıstan, Latviya, Litva, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Türkiyə, ABŞ, Azərbaycan, Gürcüstan və İsveçdən olan, ümumilikdə, 350-yə yaxın hərbçi iştirak edib.

## MAMUKA BAXTADZE: 5-6 İLƏ SİNİFDƏ 13-15 ŞAGİRD OLACAQ



Baş nazir Mamuka Baxtadzenin dediyinə görə, gələn 5-6 il ərzində yeni məktəblərin tikintisinə və mövcud olanların bərpasına 7 milyard lari xərclənəcək.

Bu haqda hökumət başçısı "Facebook"da canlı yayım etdiyi zaman siniflərdə şagirdlərin çoxluğu ilə bağlı suala cavab verərkən bildirib.

"Bu problem xüsusən Tbilisidə hiss olunur. Siniflərdə şagirdlərin sayının çox olması müəllimə dərsdə maksimum interaksiya yaratmaq imkanı vermir. Məqsədimiz 7 milyard larinin gələn illər ərzində məktəblərə ayrılmasıdır. Nəticədə yeni məktəblər tikiləcək, mövcud olanlar bərpa olunacaq ki, biz bu problemi həll edək. 13-15 şagirddən ibarət siniflərimiz olacaq. Bəzi hallarda bir az çox ola bilər. Bu ən yaxşı hesab olunan standartdır və gələn 5-6 il ərzində bu problem Gürcüstan miqyasında həllini tapacaq", - deyə baş nazir bildirib.

## GÜRCÜSTAN AVROPA ŞURASINA SƏDRLİK EDƏCƏK

Bu ilin noyabrından etibarən Gürcüstan Avropa Şurasına sədrlik edəcək. Bu barədə Gürcüstan parlamentinin vitse-spikeri Tamar Çuqoşvili jurnalistlərə bildirib.



Onun sözlərinə görə, bu il Gürcüstanın Avropa Şurasına tamhüquqlu üzvlüyünün 20 ili tamam olur.

"Bu, bizim üçün önəmli tarixdir. Avropa Şurasına 48 üzv dövlət daxildir və sədrlik rotasiya qaydasında təqdim olunur. Gürcüstanın beynəlxalq təşkilata rəhbərliyi noyabrdan etibarən başlayacaq və biz bu şansdan ölkənin maraqları üçün istifadə edəcəyik", - deyə T.Çuqoşvili bildirib.

O deyib ki, Gürcüstan Avropa Şurasına sədrliyi dövründə işğal altında olan ərazilərin azad edilməsi istiqamətində fəaliyyətini gücləndirəcək: "Bizim üçün əsas problem ərazi bütövlüyüdür. Bununla yanaşı, prioritetimiz Avropa ölkələrini Gürcüstanın nailiyyətləri ilə tanış etmək olacaq".

Vitse-spiker qeyd edib ki, apreldə Avropa Şurası Parlament Assambleyasının prezidenti Gürcüstana səfər edəcək.

Qeyd edək ki, ötən ilin noyabrından bu ilin may ayına qədər Avropa Şurasına Finlandiya sədrlik edir.



# SƏLƏFLƏR VƏ XƏLƏFLƏR

Azər MUSAOĞLU

azermusaoghlu@gmail.com

*Yaşlı nəsillə gənc nəsil çox az-az bir araya gəlirlər. Bu iki nəslin – atalar və oğulların barışmaz davası haqqında çox yazılsa da, çox araşdırılsa da sülhə imza atan olmayıb, olmayacaq da. Səbəblər isə təkcə fizikada, biologiyada, sosiologiyada deyil, həm də psixologiyadadır.*

Yas mərasimlərində, toylarda, tədbirlərdə və bu kimi yığıncaqlarda əllərinə fürsət düşən yaşlılar gəncləri hər tərəfdən barrikadaya alıb məsləhət atəşinə tutur, öz kif qoxuyan keçmişlərinə sürgün edib, suvağı qopmuş, zamanın erroziyasına uğramış ağsaqqal divarına dirəyib paslı sözlərlə güllələyirlər. Ziyalısından tutmuş ziyasızına qədər (bizdə ziyalı deyəndə niyəsə təkcə yaşlı nəslin nümayəndəsi nəzərdə tutulur) başlayırlar keçmişlərini tərifləməyə ki, bəs, bizim vaxtımızda ağsaqqala hörmət var idi; bizim vaxtımızda böyük olan yerdə kiçik oturmazdı; bizim vaxtımızda elə bilirdik müəllim yemək yemir; bizim vaxtımızda yolda müəllimi görəndə gizlənirdik; bizim vaxtımızda övladın ağzı nə idi ataya, babaya, ağsaqqala yox deyə, oğlana kimi istəyirdilər alırdılar, qızı kimə istəyirdilər ərə verirdilər; bizim vaxtımızda gəlin qaynata ilə bir süfrədə oturub çörək yeməzdi; bizim vaxtımızda bir işə başlamamışdan qabaq ağsaqqaldan məsləhət alınardı; bizim vaxtımızda bla bla bla və sair və ilaxır. Bunlar elə bilirlər "vaxtlarından" ideal zaman olmayıb. Həmişə keçmişin həsrətindədirlər və istəyirlər (arzulayırlar) ki, həmişə onların "vaxtları" olsun, hamı onların "vaxtlarında" yaşasın. Niyəsə bu keçmiş arzusundan belə təəssürat yaranır ki, yaşlı nəslin nümayəndələri hamısı ağsaqqal olmağa can atır.

Bəli, sizin vaxtınız sizə yaxşı ola bilərdi, amma indi bizim vaxtımızdır. Guya bizim vaxtımızın nəyi yaxşıdır ki. Heç olmasa iş görmək istəyən gəncliyə mane olmayın, qarşısını kəsməyin, ayağından dartmayın. Bizlər də elə sizlərin vaxtınızın zibilinə düşmüş, hələ də sizin vaxtınızın zibilliyində eşələnmirikmi? Şagird niyə müəllimdən qorxmalıdır? Müəllim bədheybətdir bəyəm? Şagird müəllimlə dost olmalıdır, belədə müəllimlə-şagird arasında kommunikasiya daha yaxşı alınır və səmərəli olur.

Neçə dəfə zəng edib yazılarımız haqqında pıçıltı ilə danışmısınız ki, bəzi problemlərə toxunmayaq. Xeyr! İndi sizin vaxtınız deyil, indi demokratik bir ölkədə yaşayırıq, indi söz azadlığımız Konstitusiya ilə qorunur. İndi yazıya görə adamı sürgün etmirlər, gülləmirlər. Ayılın! Lenin də, Stalin də çoxdan ölüb. Bizə qorxaq, paxıl, yaltaq ziyalılar, ağsaqqallar lazım deyil.

VAXTINIZI ağızdolusu tərifləmək əvəzinə, VAXTIMIZ üçün nə etdiklərinizdən niyə danışmırsınız? Heç nə! Bu gün yaşadığımız problemlər sizin vaxtınızda həll edilməli deyildimi? Yoxsa sizə də öz sələflərinizdən bir zad qalmadı, sizin sələfləriniz də iş görmək əvəzinə xələflərinə öz vaxtlarınımı tərifləyirdi sizlər kimi? Boş-boş sözlərdənsə, təriflərdənsə iş görmək lazım idi ki, bəyənmədiyiniz, yola getmədiyiniz gənclik sizin səhvlərinizin ucbatından bu gün tənəzzülə uğramayaydı. Əsrlər boyu amorf kütlə yaratmaqdan başqa əlinizdən bir iş gəlməyib. Bizim üçün məktəbləri qoruyub saxladığınızı qulaqlarımıza tıxayırsınız hər dəfə. Amma gənclərin məktəblərdə çalışmasına imkan vermirsiniz, qorxursunuz yeniliklərdən. Gənc savadlı müəllim görəndə işinizi itirməkdən qorxursunuz, gənc istedadlı şair görəndə unudulmaqdan qorxursunuz, gənc bacarıqlı siyasətçi görəndə vəzifənizi itirməkdən qorxursunuz və sair. Fəaliyyətiniz danos yazmaqdan, tələ qurmaqdan və şikayət etməkdən ibarətdir. Amma onu bilin, bu cəmiyyətin gələcəyi gənclərdən ibarətdir, qocalardan yox. Mən yaşlı nəslin əleyhinə deyiləm, haşa, gənclərə dəstək olan yaşlı nəslin nümayəndələri də var, əsl ziyalı, ağsaqqal onlardır. Onlar harada bir istedadlı, bacarıqlı, savadlı gənc görürlər dəstək üçün əllərindən gələni edirlər, heç bir təmənna güdmədən, amma təəssüf ki, beləlləri çox azdır. Təəssüf ki, pislərimizin sayı daha çoxdur, bir ayaqları gorda, bir ayaqları facebookda, çayxanalarda irəlidə gedən gəncləri paxıllamaqla, pisləməklə son nəfəslərini yaşayanlar daha çoxdur.

*Bu gün deqradasiyaya uğramış gəncliyin müəllimləri, ağsaqqalları, arxitektorları məhz öz keçmişini tərifləyən, nümunə göstərən, öz keçmişinin arzusu ilə yaşayan, gələcəkdən qorxan, vəzifədən dörd əllə yapışan, gəncləri paxıllayan yaşlılardır. Onların əlinə fürsət düşsə hüceyrələrinə hopmuş bolşevik hegemonluqları ilə sovetlərə qayıtmaq arzularına qovuşar, senzura tətbiq edər, söz azadlığını boğar, istedadları sürgün etdirər, güllələtdirər; artritli oynaqlarının şaqqıltısı sədaları altında 90-100 yaşa qədər tutduğu vəzifənin kabinetinin qapısını açıb kreslosunda oturmaq üçün hər gün evindən çıxar, çıxar ki, öz mənafeyi üçün bütöv bir millətin, cəmiyyətin gələcəyini məhv etsin.*

## APRELİN 1-DƏN MAYIN 1-NƏ QƏDƏR KİMLƏR PASPORT VƏ ŞƏXSİYYƏT VƏSİQƏSİNİ PULSUZ ALACAQLAR?



Daimi kağız şəxsiyyət vəsiqəsi olan vətəndaşlar və xaricdə yaşayan şəxslər üçün kimlik sənədinin pulsuz verilməsi ilə bağlı növbəti aksiyalar elan olunacaq. Bu haqda ədliyyə naziri Tea Tsulukiani parlamentin plenar iclasında bildirib.

Nazirin sözlərinə görə, etibarlılıq müddəti daimi olan kağız şəxsiyyət vəsiqəsinə sahib olan vətəndaşlar Gürcüstanın ümumvətəndaş pasportunu və elektron şəxsiyyət vəsiqəsini cari ilin 1 aprelindən 1 may tarixinə qədər pulsuz alacaqlar.

Xaricdə yaşayan vətəndaşlar may ayında, bir ay aksiya çərçivəsində Gürcüstanın ümumvətəndaş pasportunu tam təmənnasız ala biləcəklər.

"Biz ötən il xaricdə yaşayan soydaşlarımız üçün konsulluqlarda aksiya keçirdik. Onlar üçün vacib olan pasport 50 dollara verilirdi. Bu, həmin sənədin dəyərinin 70%-lik endirimidi və bu aksiyadan 5000 nəfər istifadə edib. Artıq elan edə bilərəm ki, Gürcüstanın müstəqillik günü olan ayda – may ayında, bir ay ərzində, Xarici İşlər Nazirliyinin dəstəyi ilə soydaşlarımıza Gürcüstan vətəndaşı pasportu pulsuz veriləcək.

2020-ci ildə seçki siyahısı ilə bağlı Demokratik Təsisatlar və İnsan Haqları Ofisinin (ODIHR) müsbət nəticəsini əldə etmək üçün vacibdir ki, kağız şəxsiyyət vəsiqələri ilə həmişəlik vidalaşaq. Bu gün 401000 vətəndaş kağız şəxsiyyət vəsiqəsinə sahibdir və vəsiqə üzərinə "müddətsiz" yazılıb.

Ədliyyə nazirliyi bundan artıq nə etməlidir ki, kağız şəxsiyyət vəsiqəsinə sahib olan vətəndaşları əmin etsin ki, onların şəxsiyyəti asan şəkildə saxtalaşdırıla bilər, mülkləri elə qeydiyyat oluna bilər ki, heç xəbərləri də olmaz. Həmçinin seçki hüquqları da əllərindən alına bilər.

Ona görə də hamını – 401000 nəfəri, hazırda cibində, çantasında, hücrəsində kağız şəxsiyyət vəsiqəsi olanları bu aksiyadan istifadə etməyə çağırıram, şəxsiyyət vəsiqəsi və pasportu aprelin 1-dən mayın 1-nə kimi pulsuz alın", - deyə ədliyyə naziri Tea Tsulukiani bildirib.

## ƏDLİYYƏ NAZİRİ: MƏHKUMLARIN SAYI ARTIB, MƏHBUSLARIN SAYI AZALIB

Ədliyyə naziri Tea Tsulukiani parlamentdə çıxışı zamanı bildirib ki, ötən ilin avqustun 1-nə olan məlumata əsasən, ölkədə 9986 məhbus və 1643 məhkum olub.

"Hazırda isə cəzaçəkmə müəssisələrində 9870 məhbus və 1937 məhkum var. Məhkumların sayı artıb, məhbusların sayı isə azalıb", - deyə T.Tsulukiani bildirib.

O, həmçinin qeyd edib ki, Haaqada imzalanmış memoranduma əsasən, Gürcüstanda digər ölkələrdən olan məhbuslar da cəza çəkəcəklər.

## APRELİN 1-DƏN SÜRÜCÜLƏR NARKOTESTDƏN KEÇİRİLƏCƏK

Bu ilin aprel ayının 1-dən etibarən sürücülərin narkotik vasitələr istifadə edib-etmədiyi yerindəcə yoxlanılacaq. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi məlumat yayıb.

Sürücülərin nəqliyyat vasitələrini narkotik vasitələrin təsiri altında idarə edib-etmədikləri xüsusi testlə müəyyən olunacaq. Artıq Gürcüstana Almaniya istehsalı olan 10 min narkotest gətirilib.

Narkotik vasitələr istifadə edən sürücülərə qarşı cərimə və ya 1 ilədək həbs cəzası tətbiq olunacaq.

Qeyd edək ki, hazırda Gürcüstanda sürücülərin narkotiklərdən istifadə edib-etmədiyi laboratoriyada müəyyən olunur. Narkotik vasitələrin təsiri altında nəqliyyat vasitələrini idarə edən sürücülər sürücülük vəsiqəsindən məhrum olunurlar.

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASINA YENİ SƏDR SEÇİLİB

Martın 24-ü Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvilinin lideri olduğu Vahid Milli Hərəkat Partiyasının (VMHP) qurultayı keçirilib. Qurultayda VMHP-yə yeni sədr seçkiləri keçirilib.



Qriqol Vaşadze səs çoxluğu ilə partiyanın sədri seçilib. O, partiya sədrliyinə yeganə namizəd olub.

Qurultayda səsvermə elektron qaydada keçirilib. İştirakçılar xüsusi mobil applikasiya vasitəsilə səs veriblər.

Q.Vaşadzenin namizədliyinin lehinə 364 nümayəndə, əleyhinə 1 nəfər səs verib, digər 1 nəfər isə səsvermədə iştirakdan imtina edib.

Qeyd edək ki, bu günə qədər VMHP-nin sədri vəzifəsini Nika Melia icra edib. Q.Vaşadze 2008-2012-ci illərdə Gürcüstanın xarici işlər naziri olub.

## ABŞ PREZİDENTİ İSRAİLİN QOLAN ÜZƏRİNDƏKİ SUVERENLİYİNİ TANIYAN SƏNƏDƏ İMZA ATIB



ABŞ prezidenti Donald Tramp İsrailin baş naziri Binyamin Netanyahunun iştirakı ilə yəhudi dövlətinin Qolan yüksəklikləri üzərində suverenliyinin tanınmasına dair sənədə imza atıb.

Netanyahu qarşılığında Amerika liderinə minnətdarlığını bildirib: "İsrailin heç vaxt sizin kimi yaxşı dostu olmayıb". O, həmçinin sənədin imzalanma gününü tarixi hadisə adlandırıb.

Daha əvvəl Tramp İsrailin Qolan yüksəklikləri üzərində suverenliyinin tanınmasının vaxtı gəldiyini demişdi.

## R.T.ƏRDOĞAN DONALD TRAMPIN QOLAN YÜKSƏKLİKLƏRİ İLƏ BAĞLI QƏRARINA SƏRT REAKSİYA VERİB

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Amerika Birləşmiş Ştatları prezidenti Donald Trampın Qolan yüksəklikləri ilə bağlı qərarına sərt reaksiya göstərib.

"Tramp, sən kimin ərazisini İsrailə verirsən? Birləşmiş Millətlər Təşkilatının qərarına əsasən, ora Suriya ərazisidir", - deyə R.T.Ərdoğan bildirib.

İstanbulda təşkil edilən bir tədbirdə ABŞ prezidenti Donald Trampın İsrailin Qolan təpələri üzərindəki suverenliyini tanıması ilə bağlı qərarını tənqid edən Ərdoğan deyib: "Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1967-ci ildə qəbul edilən qərara əsasən, ora



Suriya ərazisidir. BMT-nin qərarına baxmayaraq, sən necə Qolan təpələrini İsrailə verirsən? Avropa İttifaqı, Çin, İslam Əməkdaşlıq Təşkilatı, biz və Rusiya bunu qəbul etmir".

## ANTALYADA TÜRKİYƏ VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ BAŞ TUTUB

Antalya şəhərində Türkiyə və Rusiya arasındakı birgə strateji planlaşdırma qrupunun 7-ci iclası keçirilib. İclasda iştirak edən nümayəndə heyətlərinə Türkiyə və Rusiyanın xarici işlər nazirləri Mövlud Çavuşoğlu və Sergey Lavrov rəhbərlik ediblər.

İclasdan sonra nazirlər birgə mətbuat konfransı keçiriblər. İkitərəfli münasibətlərin inkişaf dinamikası, o cümlədən ticarət və viza sahələrində əldə olunan razılaşmalar yüksək dəyərləndirilib.

"Məqsədimiz Rusiya ilə ticarət dövriyyəsini 100 milyard dollara çatdırmaqdır", - deyə Mövlud Çavuşoğlu mətbuat konfransında bildirib.

O, ötən il iki dövlət arasında ticarət dövriyyəsi həcminin 14 faiz artdığını da vurğulayıb.

Nazir bildirib ki, Rusiya ilə qarşılıqlı olaraq,



vizanın ləğvi istiqamətində ikitərəfli görüş və müzakirələr davam edir.

Qeyd edək ki, Antalya görüşü Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin iştirakı ilə aprelin 8-də Moskvada keçirilməsi nəzərdə tutulan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclasına hazırlıq məqsədi daşıyır.

## YENİ ZELANDİYADA MİLLİ MATƏM MƏRASİMİ KEÇİRİLİB

Martın 29-da Yeni Zelandiyada təqribən 20 min nəfər törədilmiş kütləvi qırğın nəticəsində həlak olanların xatirəsini anmaq üçün milli matəm mərasiminə toplaşıb.

Dövlət tərəfindən maliyyələşdirilən mərasim faciənin baş verdiyi məscidlərdən birinin yaxınlığındakı parkda keçirilib. Mərasimdə Yeni Zelandiyanın baş naziri Casinda Ardern, faciə nəticəsində həlak olanların ailə üzvləri, yerli sakinlər və təqribən 60 ölkənin nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, martın 15-də Kraystçörç şəhərindəki iki məsciddə törədilən terror aktı nəticəsində 50 nəfər həlak olub, 50 nəfər xəsarət alıb.

Faciə nəticəsində həyat yoldaşını itirən Fərid Əhməd çıxış edərək bildirib ki, onun üçün bütün insanlar dinindən və məxsus olduqları mədəniyyətdən asılı olmayaraq bir ailənin üzvləridir.

Mərasim iştirakçıları həlak olanların adlarını ayaq üstə dinləyiblər.

Sonra çıxış edən baş nazir Casinda Ardern deyib: "Biz heç zaman nifrət və qorxu virusundan sığortalanmamışıq. Lakin biz bunun dərmanını tapan millət ola bilərik. Bunun cavabı bizim necə insan olmağımızdan asılıdır".

Mərasim televiziya vasitəsilə canlı nümayiş olunub.

Yeni Zelandiya müsəlmanları ilə həmrəylik nümayiş etdirmək üçün bütün ölkə ərazisində matəm mərasimləri təşkil edilib.

## BƏS HARDADIR SİZİN ƏDALƏTİNİZ?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

*İnsan Allahın yaratdığı ən üstün məxluqdur ki, bu səbəblə də Uca Allah bu varlığa əşrəfül-məxluqat, yəni yaradılmışların ən üstünü ismini vermişdir. Başqa bir dillə desək, insan Allahın yer üzündəki xəlifəsidir. Allah Adəm əleyhissəlamı yaradanda bütün mələkləri və cinləri onun qarşısında səcdə etdirməsi də bunun bariz bir nümunəsidir.*

Odur ki, İslam inancına görə, günahsız bir insanın canına qəsd etmək bütün insanlığa qəsd etmək sayılır. Ancaq bu gün dünyada müsəlmanlar bir qatil, bir terrorçu kimi anılır və qorxulur. Halbuki İslam sözünün mənası barış, gətirdiyi inanc isə sevgidir.

Gəlin indi mövzuya başqa bir tərəfdən baxaq. Son bir neçə ildə baş verən terror hərəkatları hansı ölkələrdə baş verir və bu hadisələri kimlər törədir? Yəmən, Fələstin, Suriya, İraq, Misir, Burma... bu ölkələrin hər biri İslam ölkəsidir və bu ölkələrdə həlak olanlar da müsəlmanlardır. Onlara silah doğruldanlar da sözdə bu ölkələrə demokratiya gətirmək istəyən Amerika və Avropadır. Burada bir sual yaranır, əgər öldürən avropalı və ya amerikalıdır, ölən müsəlmandırsa, bəs necə olur ki, müsəlmanlar terrorçu olur?

Gələk ən yaxın tarixə. Bildiyiniz kimi, bir neçə gün öncə yenə də dünya böyük bir terror xəbəri ilə sarsıldı. Yeni Zelandiyanın Kraystçörç şəhərində iki məscidə silahlı hücum olundu və nəticədə 50 nəfər şəhid oldu, 50-yə qədər adam yaralandı. Ancaq bu terrorçu haqqında heç bir Avropa televiziyaları və qəzetləri terrorçu kəliməsini ifadə etmədi. Əksinə, bəzi qəzetlər bu torrorçu şəxsin uşaqlıq şəkillərini önə çıxararaq məsum uşaq deyə başlıq atdılar. O "məsum" uşaq ki, etdiklərindən həzz alırcasına bir də bu törətdiyi cinayəti video qeydə alıb sosial şəbəkədə nümayiş etdirir. Bəs niyə müsəlman biri öz haqqını tələb etdikdə, öz vətənini müdafiə etdikdə terror hayqırtıları ətrafı bürüyür də, məsum insanların ibadətlərini yerinə yetirərkən qəddarcasına qətlə məruz qalmaları sakitçiliklə qarşılanır? Bəs hanı insanların hüquqlarını müdafiə etmək üçün qurulan beynəlxalq təşkilatlar? Haradadır ayrı-seçkilik salmayın deyib yürüş edən qurumlar? Hardasınız, ey heyvanların belə haqqını tələb edib qurbanları protest edənlər? Müsəlman ölümü sizi niyə narahat etmir? Əksinə, bu hadisə bəzilərinin işinə yarayırdı. Çünki onların demək istəyib deyə bilmədiklərini bu qatil yayımladığı 72 səhifəlik bildirimində və silahının üstündə ifadə etmişdir. Budurmu sizin ədalət anlayışınız? Sizin ədalətiniz sadəcə neft yataqlarına sahiblənməkdirmi? Bəs hardadır hər iki sözünüzdən biri olan ədalət? Ədalət sizdə yox, İslamdadır.

Türklərin çox bəyəndiyim bir sözü var: "Bir ölər, min dirilərik". Bəli, Yeni Zelandiyada 50 nəfər həyatını itirdi, sən gəl bir də Allahın ədalətini gör ki, bu qatillərə necə qalib gəldi. 50 nəfərin şəhadəti 500-ə yaxın insanın İslama girməsinə vəsilə oldu. Bir şeyi unutmamaq lazımdır ki, zalımın zülmü varsa, məzlumun da Allahı var.

Bu arada, Yeni Zelandiyanın baş naziri xanım Casinda Ardernə də şəhid olanların ailələrinə və yaxınlarına, ən əsası da İslama qarşı sərgilədiyi davranışlarından dolayı böyük bir təşəkkür düşür.

Onu da qeyd edək ki, Yeni Zelandiya dünyanın ən təhlükəsiz ölkəsi kimi bilinirdi deyə Suriyadan, İraqdan, eləcə də zülmə uğramış bir çox İslam ölkələrindən camaat qaçıb orada özlərinə sığınacaq tapmışdılar.

*Sonda da, bilirik səsimiz gedib Yeni Zelandiyaya çatmaz, amma biz yenə də Yeni Zelandiya xalqına, ən əsası da İslam aləminə başınız sağ olsun deyirik.*

## BAŞ NAZİR: MÜƏLLİMLƏRİN ƏMƏK HAQQI 1500 LARİDƏN 1800 LARİYƏ QƏDƏR ARTACAQ



Baş nazir Mamuka Baxtadze müəllimlərin əmək haqqının 1500 laridən 1800 lariyə qədər artacağını deyib. O bildirib ki, pedaqoqların dəyərləndirilməməsi və onların orta əmək haqqının başqa peşə sahiblərinin əmək haqqı ilə müqayisədə aşağı olması faciədir.

"Müəllimlik ixtisası Gürcüstanda ən yüksək əmək haqqı olanlardan biri olmalıdır. Bir neçə gün əvvəl Statistika Xidməti müxtəlif sahələrin əmək haqlarının sayını yayımladı və ən az əmək haqqı təhsil sahəsindədir, bu, mənim üçün faciədir. Çünki dövlətdə ən çox müəllimin əməyi dəyərləndirilməlidir. Bizim diapazonla müəllimin əmək haqqı 1500-dən 1800 lariyə qədər olacaq. Bu o deməkdir ki, biz əmək haqqını üç dəfə artırırıq", - deyə baş nazir bildirib.

Statistika Xidmətinin göstəricilərinə görə, 2018-ci ilin dördüncü rübünə əsasən, Gürcüstanda orta əmək haqqının həcmi 1202 lari idi, bu, təhsil sahəsində verilən 665 lari əmək haqqından, demək olar ki, iki dəfə çox idi.

Milli Statistika Xidmətinin hesabatına əsasən, təhsil sektoru 2013-cü ildən bu yana ən aşağı əmək haqqı olan sahədir. 2013-cü ilə qədər isə bu yeri balıqçılıq sahəsi tuturdu.

Mamuka Baxtadze dünyada uğurlu hesab olunan təhsil sisteminin beynəlxalq modelindən də danışıb və qeyd edib ki, hökumət reforma çərçivəsində mütləq onların təcrübəsini nəzərə alacaq: "Beynəlxalq təcrübədə məktəbəqədər tədris baxımından Yaponiyanın təcrübəsindən istifadə edəcəyik. Məktəb modelində Finlandiya modelini nəzərdə tuturuq. Peşə təhsilində isə əsas istiqamət Almaniya, İsveçrə və Avstriyanın topladığı təcrübədir".

*Hazırladı: Anuki Dzidziaşvili*

## PEŞƏ PROQRAMLARINA QƏBUL OLANLARIN SAYI AZALIB

Peşə tədris proqramlarına qeydiyyat aprelin ilk tarixlərində elan olunacaq. Bu haqda peşə təhsilinin inkişaf departamentinin sədri İrina Tserodze "Etaloni.ge" saytı ilə söhbəti zamanı bildirib. O deyib ki, yaz qəbulu daha kiçik miqyaslıdır: "Peşə tədris proqramlarına qeydiyyat, güman ki, aprelin ilk günlərində elan olunacaq və iki həftə ərzində davam edəcək. Qayda olaraq, yaz qəbulu daha kiçik miqyaslıdır və güman edirik ki, qeydiyyat 3 minə qədər azad yer üçün elan olunacaq".

İ.Tserodze peşə proqramlarına qəbul olanların sayının az olması ilə bağlı məlumata açıqlama verib. Onun sözlərinə görə, bu il peşə proqramına qəbul olan şəxslərin sayının azalmasına standartların ciddiləşməsi səbəb olub: "Standartların ciddiləşdirildiyinə görə sərbəst yerlər azalıb. Yəni əvvəl bir auditoriyada 100 adam təhsil ala bilirdisə, bu, indi mümkün deyil. İndi 15 nəfərə bir emalatxana düşür, yəni təcrübəni hamı keçməlidir, biri durub başqasına baxmamalıdır. Ona görə də infrastruktur baxımından avtorizasiya standartları daha da ciddiləşdirib. Biz infratrukturu inkişaf etdirənə kimi say aşağı enəcək. Bu il artıq altı lokasiya əlavə olunacaq. Bu, fənn proqramları olan



saya əlavə olunacaq. Sayın azalması bununla bağlıdır".

Statistika Xidmətinin məlumatına əsasən, Gürcüstanda peşə proqramlarına qəbul olan şəxslərin sayı 2017-ci illə müqayisədə 2018-ci ildə 24,4% azalıb.

## DAĞ KƏNDLƏRİNİN MƏKTƏBLƏRİNDƏ ÇALIŞAN MÜƏLLİMLƏRƏ TORPAQ SAHƏSİ VƏ MAL-QARA VERİLƏCƏK



Parlamentin Təhsil, Elm, Mədəniyyət və İdman Komitəsinin iclasında bir neçə təşəbbüs haqqında məlumat verilib. Təşəbbüslər dağlıq regionlarda çalışan müəllimlərə torpaq sahəsi ilə mal-qaranın verilməsi və bir müəllimin bir neçə fənni tədrisi ilə bağlı olub.

Dağlıq regionlarda çalışan müəllimlərin problemləri haqqında danışarkən deputat Ququli Mağradze bildirib ki, bir neçə fənni tədris edə biləcək müəllimlərin hazırlanması planlaşdırılır.

Nukri Kantarianın sözlərinə görə isə, işləmək üçün dağlıq regionlara gedən müəllimlərə istifadə üçün müəyyən mülk veriləcək ki, sonradan mülk müəllimlərə qalacaq.

"Təhsil Nazirliyində artıq fikir var ki, dağ kəndlərindəki məktəblərə çalışmaq üçün gedən müəllim bir neçə fənn üzrə hazırlansın. Müəllim bir neçə fənni, məsələn, coğrafiya, tarix, gürcü dili və ya fizika, riyaziyyat, biologiya fənlərini tədris edəcək. Bu təcrübə yalnız bizim ölkədə deyil, bütün dünyada mövcuddur. Bir neçə fənnin tədrisinin öz üstünlüyü var. Bu baxımdan müəllimlər hazırlanmalıdır. Həmçinin məktəbdə bir saat dərs üçün 20 lari verilirsə, dağlıq bölgədə bunun 30 lari olmasının tərəfdarıyam", - deyə Ququli Mağradze bildirib.

Nukri Kantaria nazirlikdə kənd və dağlıq regionlarda çalışan pedaqoqların həvəsləndirilməsi üçün söhbət apardığını bildirib: "Belə söhbət də gedir ki, kənddə və dağlıq regionda çalışan müəllimə torpaq sahəsi və mal-qara verilsin ki, bir neçə il sonra bu, müəllimin mülkünə keçsin. Belə təşəbbüs var idi, bu haqda söhbətimiz olub və düşünürəm ki, yaxın gələcəkdə bu, işə çevriləcək".

*Hazırladı: Tamta Virsaladze*

### MARİAM CAŞİ: DİREKTORLAR VƏ PEDAQOQLAR MƏKTƏBƏ SİYASƏT GƏTİRMƏMƏLİDİR



Parlamentin təhsil, elm və mədəniyyət komitəsinin sədri Mariam Caşi bildirib ki, onun üçün məktəb rəhbərliyi nümayəndələrinin siyasi baxışlarının heç bir fərqi yoxdur, ancaq onlar öz siyasi baxışlarını məktəbə daxil etməməlidirlər.

"Şəxsən mənim üçün məktəb administrasiyası nümayəndələrinin hansı siyasi partiyaya simpatiyalarının olmasının fərqi yoxdur. Bütün insanlar azaddır, ancaq direktor və müəllim məktəbə siyasət gətirməməlidir. Sistem tərəfindən inzibati işçilərdən istifadə etmək bu gün aradan qaldırılıb", - deyə Mariam Caşi "Kommersant" radiosuna bildirib.

### 2019-CU İLİN ABİTURİYENTLƏRİ ÜÇÜN HANSI ŞƏHƏRLƏRDƏ İMTAHAN MƏRKƏZLƏRİ AÇILACAQ

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin qərarı ilə 2019-cu ildə Xuloda imtahan mərkəzi açılacaq. İstədikləri halda abituriyentlər imtahan mərkəzlərinin siyahısında Xulo mərkəzini də seçə biləcəklər.

2019-cu ildə imtahanlar 11 şəhərdə keçiriləcək. İmtahan mərkəzləri Axaltsixe, Batumi, Qori, Zuqdidi, Tbilisi, Telavi, Ozurgeti, Rustavi, Poti, Kutaisi və Xulo şəhərlərində fəaliyyət göstərəcək.

Xatırladaq ki, Vahid Milli İmtahanlar üçün qeydiyyat martın 12-dən başlayıb. Abituriyentlərin qeydiyyat prosesi bu il də bir neçə mərhələyə bölünüb: şəxsi məlumatın daxil edilməsi, imtahan şəhərinin və imtahan veriləcək fənlərin seçilməsini abituriyentlər birinci, əsas mərhələdə (3 aprel, saat 18:00-a qədər) yerinə yetirə biləcəklər.

3 aprel, saat 18:00-dan sonra abituriyentlər imtahan şəhərini dəyişə bilməyəcəklər. Onlar ancaq 7 may, saat 18:00-a qədər imtahan əlavə edə və ya dəyişə biləcəklər. Tədris proqramları siyahısında dəyişiklik etmək isə apellyasiya nəticələrinin yayımlanmasının növbəti günü mümkün olacaq.

### "QLOBAL MÜƏLLİM MÜKAFATI 2019"-UN QALİBİ KENİYALI PİTER TABİÇİ OLUB




"Qlobal müəllim mükafatı 2019"-un qalibi Keniyalı müəllim Piter Tabiçi olub. Mükafatlandırma mərasimi Dubayda keçirilib. Mükafat olaraq P.Tabiçiyə 1 milyon ABŞ dolları verilib.

2019-cu ilin dünyanın ən yaxşı müəlliminin 10 finalçısı arasına bu il Lado Apxazava da düşüb. Finalçılar 179 ölkədən 10 000 müraciət arasından seçiliblər. Lado Apxazavaya dəstək olaraq Dubayda keçirilən mərasimə Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili də qatılıb. Mükafatlandırma mərasimi başa çatdıqdan sonra M.Batiaşvili L.Apxazavanı dünyanın 10 ən yaxşı müəllimi arasına düşməsi münasibəti ilə təbrik edib və gələcək işlərində uğurlar arzulayıb.

Qalib Piter Tabiçinin dərs dediyi məktəb Keniyanın mərkəzindən aralı, kasıb bir rayonda yerləşir, harada ki, uşaqların çoxu yetimdir və ya bir valideynini itirib. Narkomaniya, intihar, erkən yaşda evlilik və hamiləlik burada ciddi problemdir. Piter müəllim maaşının demək olar ki, 80 faizini həmin uşaqlara yardım üçün xərcləyir. O, şagirdlərə müxtəlif növ layihələr yaratmaqda kömək edir ki, bunun sayəsində də uşaqlar öz əl işlərini sərgiləmək üçün beynəlxalq sərgilərə qatılırlar.

### PASXA BAYRAMINA GÖRƏ MƏKTƏBLƏR NEÇƏ GÜN TƏTİLƏ ÇIXACAQLAR?

Bu il pravoslav dünyasının bayramı olan Pasxa aprelin 28-nə təsadüf edir. Pasxa bayramına görə ictimai məktəblərdə tədris prosesi bir neçə günlük dayandırılacaq.

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyindən verilən məlumata əsasən, Pasxa bayramında şagird və müəllimlər üçün istirahət günləri cümə günü 26 aprel və bazar ertəsi 29 aprel tarixləri olacaq. Dərs prosesi isə çərşənbə axşamı 30 apreldə adi rejimdə davam edəcək.

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# MÜƏLLİMLƏRDƏ MƏMNUNİYYƏTSİZLİK SİNDROMU



*“Mən onsuz da dərsimi izah edib gedəcəm, ayın sonu da maaşımı alacam. İstər oxuyun, istər oxumayın, mənə nə ziyanı var?” – bu cümlə bir çoxunuza tanış gəlir, elə deyil? Bu cümlədəki acizliyi görə bilirsinizmi? Burada öz fənnini uşaqlara sevdirə bilməyən, onlarda maraq oyada bilməyən, özü ilə uşaqlar arasında bir əlaqə qura bilməyən müəllimin içində basdırdığı (basdıra bilmədiyi) aciz üsyanını görə bilirsinizmi? Elə isə, gəlin 12 illik orta məktəbdə gördüklərimizin arxasında yatan psixoloji sindromdan söz edək.*

İllərdir məktəblərdə müəllimlərin şagirdlərdən bitmək bilməyən şikayətləri, dinmək yerinə, daha da hərarətlənir: dərsi dinləmir, gec gəlir, yoldaşları ilə danışır, dərsi qarışdırmağa çalışır, ayağını ayağının üstünə atır, dərsdə yuxulayır, pəncərədən həyətə baxır...

Vəziyyət budur: əgər bir məkanda bir avtoritar rejim varsa, o avtoritar rejimə şərtsiz, kələmsiz uyanlar olduğu kimi, itaətsizlik edənlər də olacaq. Bu məkan missiyası, arxitekturası və tədris planı ilə itaətkar bədənlər yetişdirən qurum məktəb olduqda, bu itaət və itaətsizliklər və müəllimlərin, şagirdlərin bitmək bilməyən şikayətləri qaçınılmaz olur. Bundan əlavə, nəyin təhsili verilir məktəbdə? Soruşuram sizdən, təhsil planının (proqramın) xaricinə çıxa bilməyən bir təhsil ocağı özünü nə dərəcədə doğrulda bilər? Əzbərə əsaslanan bir sistemdə təhsil alan şagird nə dərəcədə yaradıcı, yenilikçi ola bilər?

Müəllimlərin böyük əksəriyyətinin alternativ təhsil modellərindən xəbəri yoxdur, olsa da edə biləcəyi bir şey yoxdur. Məsələnin həlli o avtoritar rejim təmsili sevgisindən əl çəkməkdir; müəllim-şagird, şagird-öyrənən iyerarxiyasından əl çəkməkdir. Siz əgər siniflə bir bütün ola bilmir, siniflə dostluq edə bilmirsinizsə, dərsi ancaq şikayətlərlə və ya əskik qiymət vermək təhdidləri ilə davam edə bilərsiniz və iş saatının bitməsi üçün şagirddən daha çox səbirsizlənərsiniz. Hərçənd, bu nə tək başına müəllimlik problemidir, nə də şagirdlik; təhsilin disiplin və avtoritar fiqurların məktəb kimi tək bir məkana sıxışdırılmağıdır problem; yeniliklərə açıq olmayıb, yenilikləri qəbul etməməkdir problem; şagirdi bir fərd kimi yox, natamam bir uşaq kimi görməkdir problem.

12 illik orta təhsil həyatım boyunca təkrar-təkrar şahidi olduğum şey müəllimlərimizin bizdən gileylənib keçmiş Sovet sistemindəki təhsil və cəzalandırma üsullarından misallar çəkmələri oldu. Müəllimin kinayə ilə şagirdə dönüb “ah, o əvvəlki Sovetin vaxtı olaydı, onda görərdiniz siz!” deməsinin həmin şagirddə dərsə maraq və məsuliyyət hissi oyadacağına siz bəlkə də inana bilərsiniz, ancaq mən inanmıram. Burada Friedrich Nitzschenin bu cümləsinə diqqət yetirməyinizi istəyəcəm sizdən: “Dərisini dəyişdirə bilməyən ilanlar ölməyə məhkumdur. Bu vəziyyət fikirlərini dəyişdirə bilməyən zehinlər üçün də keçərlidir”.

Üzləşdiyi çətinliklərdən təngə gələn müəllim digər tərəfdən öz aqressiyasını şagirdə ötürərsə, bu dəfə də bu aqressiya şagirddə toplanır, toplanır və nəhayət onun davranışlarında əks olunur. Elə buna görə də hər 10 şagirddən cəmi birinin müəllimliyə həvəsi ya olar, ya olmaz, artıq mənə təəccüblü gəlmir.

*Uşaq ya elə, ya belə, onsuz da həyata atılıb cəmiyyətin fərdləri arasında özünə yer edəcək. Burada əsas məsələ bu cəmiyyəti təşkil edən fərdlərin sağlam düşüncəli, sağlam təfəkkürlü, özünə inamlı, yeniliyə açıq, düşünən və düşündürən olmalarıdır. Cəmiyyətin formalaşmasının təməlində isə müəllim durur: təməli qoyan odur, uşağı şagird olaraq qəbul edib yetişkən bir fərd olaraq həyata qazandıran odur. Elə isə, şagirdin potensiyalından şikayətlənib, düşünə bilmə qabiliyyətindən məmnuniyyətsizlik etməzdən əvvəl müəllim, şagirdə düşünməyi öyrətməlidir, başqalarının nə düşündüyünü deyil. Bax, o zaman artıq inkişafdan, təhsildən, düşünən və düşündürənlərdən danışa bilərik.*

*Elcan HACILI*
*Tbilisi Dövlət Universiteti, Tibb fakültəsi*
*@mesyoeljan*

# GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Son zamanlar Avropa İttifaqının/Şengen zonasının üzvü olan ölkələr sərhəd kontrolunu gücləndiriblər. Nəticədə Avropa İttifaqının/Şengen dövlətlərinin vizasız rejimlə müəyyən edilmiş şərtlərini qane etməyən və uyğun sənədləri olmayan bir çox vətəndaşlara Avropa İttifaqı/Şengen ərazisinə daxil olmağa icazə verilməyib.

Bir daha Avropa İttifaqına üzv olan ölkələrə səyahət etmək istəyənlərə xatırlatmaq istəyirik ki, səfər etməmişdən əvvəl Avropa İttifaqına üzv olan ölkələrin sərhədini keçən zaman lazım olan bütün sənədlərinizi qaydasına salın.

Gürcüstanın xarici ölkələrdəki səfirliklərinin Şengen dövlətlərinin sərhədlərini keçmək üçün mövcud olan qaydalara müdaxilə etmək imkanı və səlahiyyətləri yoxdur.

**Vizasız gediş üçün hansı sənədlər lazımdır?**

Son 10 il ərzində verilmiş Gürcüstan vətəndaşının biometrik pasportunun Avropa İttifaqı/Şengen ölkələri ərazisindən çıxış planlaşdırılan gün üçün, ən azı 3 ay qüvvədə olmaq müddəti olmalıdır.

Səyahət məqsədini təsdiqləmək üçün sərhəd xidmətinin nümayəndəsinin sonrakı sənədləri tələb etmək hüququ var:

• Qayıdış bileti;
• Mehmanxana sifarişini təsdiq edən sənəd;
• Səyahət sığortası;
• Səyahətin maddi təmin edilməsinin təsdiqlənməsi: məsələn, nəğd pul, qüvvədə olan bank kartı, maliyyələşdirmə haqqında arayış, qarşılayan şəxsin zəmanət məktubu.



Maddi təminat üçün lazım olan məbləğ Şengen dövlətinin daxili qanunvericiliyi ilə müəyyən ediləcək. Mehmanxana xərclərindən əlavə, həmin məbləğ qayda olaraq gündə 50 avrodan artıq olmayacaq.

**Konfrans, seminar, iş görüşlərində iştirak etmək məqsədi ilə səyahət edən halda yuxarıda qeyd olunan sənədlərlə birgə aşağıdakı sənədlər də lazımdır:**

• İştirak etdiyiniz tədbirin/konfransın, seminarın, dəvəti/proqramı.

**Qohumları, dostları və ya yaxınları ziyarət etmək məqsədi ilə səyahət zamanı yuxarıda qeyd olunan sənədlərlə yanaşı sonrakı sənədlər də vacibdir:**

• Avropa İttifaqı/Şengenə üzv ölkənin ərazisində leqal yaşayan ev sahibinin əlaqə məlumatları (ünvan, telefon), həmçinin dəvət məktubu.
• Ev sahibinin müvəqqəti yaşama hüququnu təsdiq edən sənədin və ya müvafiq ölkədə leqal yaşadığını təsdiq edən sənədin surəti.

**Tibbi xidmətlərdən istifadənin, qısa müddətli müalicə kursu/əməliyyat məqsədi ilə səyahət edən halda yuxarıda qeyd edilən sənədlərlə bərabər aşağıdakı sənədləri özünüzlə götürməyiniz məsləhətdir:**

• Müalicə olunmağı planlaşdırdığınız xəstəxananın razılığı və ya Gürcüstanın tibb müəssisələrinin müvafiq müalicəni Avropa İttifaqı ölkələrində aparılması üçün məsləhəti.
• Ümumi səyahət dövrü üçün səyahət sığortası.
• Səyahət və müalicənin maddi təminatını nəğd pulla, qüvvədə olan elektron kartla və ya köçürməni təsdiq edən sənəd.

# ნოვრუზ ბაირამი

ნოვრუზი სპარსული სიტყვაა. მისი ერთი ნაწილი „ნოვ“ – ახალს, ხოლო მეორე „რუზ“ დღეს ნიშნავს. ოდითგანვე 21 მარტს დღისა და ღამის გათანასწორების, ჰაერის გათბობის, თოვლის დნობის დაწყების, ხეებზე ყლორტის გამოსვლისა და დედამიწის გამოცოცხლების, ანუ სიცოცხლის დაწყების დღედ მიიჩნევენ და შესაბამისად, ნოვრუზ ბაირამიც გაზაფხულის შემოსვლის, ზოგიერთ ქვეყანაში კი ახალი წლის დღესასწაულია.

ნოვრუზის დღესასწაული, როგორც წესი, სამ დღეს გრძელდება. ნოვრუზის დადგომამდე თვის ოთხივე კვირის სამშაბათიც მნიშვნელოვანია.

„სუ ჩერშენბე“ – წყლის სამშაბათია. ამ დღეს წყლის განახლება ხდება. ტრადიციის თანახმად, ამ დღეს ადამიანები მდინარეებსა და წყაროებზე დილით ადრე მიდიოდნენ, სვამდნენ წყალს, იბანდნენ და ერთმანეთს ასხამდნენ. მათი რწმენით, სწორედ ამ დღეს ახლდება წყალი.

ერთი კვირის შემდეგ დგება – „ოდ ჩერშენბე“, ანუ ცეცხლის სამშაბათი. ცეცხლი განასახიერებს მზეს, ის სითბოს ნიშნავს და საერთოდაც, ნოვრუზის სიმბოლოა. ამ დღეს ანთებენ კოცონს, რომელიც აუცილებლად ბავშვმა უნდა აანთოს. მათი რწმენით, მხოლოდ ამ შემთხვევაში იგი წმინდაა და მასზე სამჯერ ან შვიდ ჯერ ხტებიან. ამას სულისა და სხეულის გაწმენდის მიზნით აკეთებენ. სჯერათ, რომ ცეცხლი ყველაფერს ცუდსა და არასასურველს გაანადგურებს. ცეცხლის სამშაბათს ღამეს ოჯახებში იმდენი სანთელი ინთება, რამდენი წევრიც ცხოვრობს.



მესამე ქარის გამოცოცხლობის სამშაბათია. ქარი, როგორც შემოქმედებითი ენერგია, ხეებს ნიადაგის გაღვივებაში, ხოლო ყვავილებს დამტვერვაში ეხმარება. ქარი მთელს ამ ენერგიას ატმოსფეროში ფანტავს. ეს არის ბედნიერების, წარმატების, სიყვარულის, მხიარულობის, განახლების და გამოღვიძების ატმოსფერო.

მეოთხე სამშაბათი „ტორპაგ ჩერშენბე“ – დედამიწის განახლების სამშაბათია. დედამიწა სიცოცხლის, ნაყოფიერებისა და თანასწორობის სიმბოლოა. ამ დღემდე თეფშზე ერთ მუჭა ხორბალს თესავენ. მწვანე ჯეჯილი ბუნების გამოღვიძებას, სიუხვესა და კეთილდღეობას ნიშნავს. ამ დღეს სხვაგვარად, „ახირ ჩერშენბე ახშამს“, ზამთრის ბოლო სამშაბათს უწოდებენ. მეოთხე სამშაბათს, სახლების კართან, ბავშვის ქუდებსაც შეინიშნავთ. ეს ძველი ტრადიციაა. ოჯახის წევრები მათ ქუდებს ტკბილეულით უვსებენ.

ნოვრუზ ბაირამი აღინიშნება გაზაფხულის დადგომასთან არის დაკავშირებული და გვაუწყებს ახალი წლის შემოსვლას. კალენდარში გაზაფხულის პირველი დღე მზის წლიური ბრუნვის დასასრულს გვიჩვენებს.

ნოვრუზ ბაირამის ისტორიული ფესვები უძველეს დროს ღვთის მოციქულის ზარადუსტრას დროს განეკუთვნება.

უძველეს ბაბილონში დღესასწაული იწყებოდა 21 აპრილს (მარტი, აპრილი) და 12 დღეს გრძელდებოდა. თვითოეულ დღეს, თავისი რიტუალები და გართობები ჰქონდა. ნორუზ ბაირამის განსაკუთრებულობა ისიცაა, რომ ის ძველ წელს ახალ წელს აბარებს.

2010 წელს გაეროს გენერალურმა ასამბლეამ ნოვრუზი საერთაშორისო დღეს აღიარა. 2009 წლის 28 სექტემბერს იუნესკოს სამიტზე ნოვრუზი ოფიციალურად იქნა შეტანილი კაცობრიობის არამატერიალური კულტურული მემკვიდრეობის სიაში.

## LEVAN İZORİA AZƏRBAYCANLI ƏSGƏRLƏRİ NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstanın müdafiə naziri Levan İzoria azərbaycanlı hərbçiləri Novruz bayramı münasibətilə təbrik edib. Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

L.İzoria Müdafiə Qüvvələrinin Baş Qərargah rəhbəri, general-mayor Vladimir Çaçibaya ilə Marneulidə yerləşən aviasiya bazasına baş çəkib. Nazir azərbaycanlı əsgərləri Novruz bayramı münasibətilə şəxsən təbrik edərək onları şirniyyatlara qonaq edib.

Müdafiə naziri azərbaycanlı hərbçilərin valideynlərinə layiqli vətənpərvərlər kimi tərbiyələndirdiklərinə görə minnətdarlığını bildirib. O qeyd edib ki, Müdafiə Nazirliyi həqiqi hərbi xidməti başa vuran azərbaycanlı əsgərlərin istəyi olacağı təqdirdə, gələcək karyeraları üçün imkanların yaradılmasına hazırdır: “Biz etnik azlıqlardan olan əsgərlərin müdafiə qüvvələrində maksimal inkişafı, inteqrasiyası, gürcü dilini daha yaxşı bilmələri və peşəkar inkişafları üçün hər bir şərait yaradırıq”.

L.İzorianın qərarı ilə Novruz bayramı ilə əlaqədar 21 və 22 mart müsəlman hərbçilər üçün istirahət günü elan olunub.

## MAMUKA BAXTADZE AZƏRBAYCANLILARI NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Baş nazir Mamuka Baxtadze Marneuli rayonunda Novruz bayramına həsr olunmuş şənlikdə iştirak edib. Hökumət başçısı Kvemo Kartli bölgəsi və Marneuli rayon rəhbərliyinin nümayəndələri ilə birgə xalq gəzintisində iştirak edib, bayram tonqalını yandırıb.

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik edib. O, azərbaycanlılara bahar əhval-ruhiyyəsi, ailələrə sevinc və əmin-amanlıq arzu edib.

Daha sonra M.Baxtadze çıxış edərək Azərbaycan dilində tədbir iştirakçılarını təbrik edib.

O, azərbaycanlılara cansağlığı, sevinc və xoşbəxtlik arzulayıb.

“Biz Gürcüstanda yaşayırıq və ölkəmiz qardaşlıq və birgə yaşayışla bağlı qədim tarixə malikdir. Gürcüstanın gücü hər zaman onun müxtəlifliyində olub. Biz Gürcüstanın övladları olaraq ümumi vətənimiz üçün birgə çalışmışıq. Bu böyük sevgi və qardaşlıq ənənələri gələcək nəsillərə ötürülməlidir. Şadam ki, Azərbaycandan gələn dostlarımız da bayram şənliyində iştirak edirlər. Mən Azərbaycandakı bacı və qardaşlarımızı da Novruz bayramı münasibətilə təbrik edirəm və onlara ən xoş arzularımı çatdırıram”, - deyib M.Baxtadze.

Marneulinin mərkəzi Rustaveli küçəsində təşkil olunmuş şənlik çərçivəsində Azərbaycanın milli mətbəx, şirniyyat, çay süfrəsi, milli incəsənət nümunələri sərgilənib, müxtəlif idman yarışları keçirilib, səhnəciklər, gürcü və Azərbaycanın milli rəqslərindən ibarət konsert proqramı nümayiş etdirilib.

Tədbirdə həmçinin Kvemo Kartli bölgəsinin rayonlarına həsr olunmuş sərgi pavilyonları, yerli məhsullar, Gürcüstana aid guşələr də təqdim olunub.

Şənliyə Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili, baş nazirin regional məsələlər üzrə müşaviri Sozar Subari, Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan, digər rəsmi şəxslər və diplomatik korpusun nümayəndələri də qatılıblar.

## MARNEULİDƏ FOLKLOR QRUPLARIN RƏQSLƏRİNDƏN İBARƏT KONSERT KEÇİRİLİB

Marneulidə Novruz bayramı ilə bağlı folklor qrupların rəqslərindən ibarət konsert keçirilib. Konsert Tbilisidə fəaliyyət göstərən Yunus Əmrə İnstitutu, Türk İş Birliyi və Koordinasiya Agentliyi (TİKA), Yaradıcı Gənclər Akademiyası və Marneuli Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.

Konsertdə gənclərdən ibarət aşıqlar qrupu, Ərzurum Atatürk Universiteti və Marneuli Sarvan rəqs qruplarının çıxışları olub, gənclərin ifasında musiqilər və uşaqların ifasında şeirlər deyilib.

Tədbirə Türkiyənin Gürcüstandakı səfirinin müavini Onur Sevim, Türkiyə səfirinin dini müşaviri Ahmet Erdem, Tiflis Maarif Okullarının, Yunus Əmrə İnstitutunun və TİKA-nın nü-



mayəndələri, tələbələr və Marneuli sakinləri qatılıblar.

## SALOME ZURABİŞVİLİ: KVEMO KARTLİDƏ GÜRCÜ DİLİNİN TƏDRİSİ GÜCLƏNDİRİLMƏLİDİR



"Gürcüstanın multietnik bölgəsi olan Kvemo Kartlidə gürcü dilinin tədrisinin gücləndirilməsi və təşviq olunması olduqca vacibdir". Bu barədə prezident Salome Zurabişvili bölgəyə səfəri zamanı bildirib.

Onun sözlərinə görə, gürcü dilinin tədrisinin gücləndirilməsi milli azlıqların sosial-siyasi həyata sürətlə inteqrasiyasına imkan verəcək.

S.Zurabişvili deyib ki, Kvemo Kartlidə gürcü, azərbaycanlı və ermənilərin birgə yaşaması Gürcüstanda sülhün, qarşılıqlı anlaşmanın, hörmət və tolerantlığın olmasını göstərir.

"Tolerantlıq bütün Qafqaz üçün ümumi dəyərdir. Bu gün dözümlülüyü dəyər kimi qoruyub saxlamaq çox vacibdir. Çünki bu, bugünkü dünyada əsas çağırışlardan biridir", - deyə prezident bildirib.

Salome Zurabişvili Kvemo Kartliyə səfəri çərçivəsində Marneuli Rayon İcra Hakimiyyətində bölgə və rayonun rəhbər şəxsləri ilə görüş keçirib. Görüşdə bölgənin inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Dövlət başçısı həmçinin Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin regional mərkəzində və Tamarisi kənd məktəbində də olub.

## PREZİDENT SALOME ZURABİŞVİLİ BOLNİSİ RAYONUNDA YERLİ SAKİNLƏRLƏ GÖRÜŞÜB

Gürcüstan prezidenti Salome Zurabişvili Bolnisi rayonunda yerli sakinlərlə görüşüb. Görüşdə dövlət başçısı rayonun inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirib.

S.Zurabişvili deyib ki, bölgədə bir sıra faydalı və maraqlı layihələr həyata keçiriləcək və bunun üçün insan resursları tələb olunur.

Bölgələrdə mədəni həyatın inkişaf etdirilməsindən danışan prezident Kvemo Kartlidə kitabxana, teatr, muzey və mədəni mərkəzlərin fəaliyyət göstərməsinin əhəmiyyətli olduğunu qeyd edib.

S.Zurabişvili Kvemo Kartlinin multietnik bölgə kimi inkişaf etdirilməsinin vacibliyini də vurğulayıb. O deyib ki, Kvemo Kartli bölgəsi



Gürcüstanın tolerantlığının güclü nümunəsidir.

Dövlət başçısı bildirib ki, Kvemo Kartli bölgəsində yaşayan gənclər xaricdə təhsil proqramlarından yararlanmalıdırlar. S.Zurabişvili Bolnisidə kiçik müəssisələrin fəaliyyəti ilə də tanış olub.

## MARNEULİ RAYONUNUN İCRA BAŞÇISI VƏZİFƏSİNƏ NAMİZƏDLƏR TƏQDİM EDİLİB



Hakim "Gürcü arzusu" Partiyası Marneuli rayonunun icra başçısı vəzifəsinə Zaur Darğallının namizədliyini irəli sürüb.

"Zaur Darğallı etnik azəridir və Gürcüstanın layiqli oğullarından biridir". Bunu "Gürcü arzusu" Partiyasının siyasi katibi İrakli Qaribaşvili partiyanın icra başçısı vəzifəsinə namizədləri təqdim edərkən deyib. Onun sözlərinə görə, Z.Darğallı hakim partiyanın komandasında fəal iştirak edir.

"O, hazırda Kvemo Kartli qubernatorunun müavinidir. Zaur Darğallının Kvemo Kartli bölgəsində uğurlu fəaliyyətlə bağlı böyük iş təcrübəsi var. İnanırıq ki, onun Marneuli rayonunda da fəaliyyəti uğurlu olacaq", - deyə İ.Qaribaşvili bildirib.

Zaur Darğallı 2017-ci ildən etibarən Kvemo Kartli bölgəsinin qubernator müavini vəzifəsini tutur.

Müxalif "Avropalı Gürcüstan" Partiyası Marneuli rayonunun icra başçısı vəzifəsinə Əhməd İmamquliyevin namizədliyini irəli sürüb. Müstəqil namizəd olaraq isə Gürcüstanın Azərbaycanlı Hüquqşünaslar Assosiasiyasının təsisçisi Əli Bədirov seçkilərdə iştirak edəcək.

May ayının 19-da baş tutacaq aralıq seçkilərdə Zuqdidi, Çiatura, Xulo, Zestafoni və Marneuli rayonlarına icra başçıları ilə yanaşı Saqareco, Axmeta, Adigeni, Ozurqeti, Çiatura, Tkibuli, Tsxaltubo və Zestafoni rayonlarının sakrebulolarına (yerli məşvərət orqanları) da deputatlar seçiləcək.

Gürcüstan hökuməti aralıq seçkilərə, ümumilikdə, 4 466 910 lari məbləğində vəsait ayırıb. Marneuli rayonunun icra başçısı seçkilərinə isə 39 427 lari məbləğində vəsait xərclənəcək.

Qeyd edək ki, Marneuli rayonunun sabiq başçısı Temur Abazov 2017-ci ildə yerli idarəetmə orqanlarına keçirilmiş seçkilərdə qalib gələrək Marneulinin icra başçısı seçilib. O, 2018-ci ilin iyunun 13-də Marneuli rayon sakini Elçin Allahverdiyevə qarşı qeyri-insani və alçaldıcı davranış faktı ilə bağlı saxlanılıb. Ötən ilin dekabrın 13-də T.Abazov 10 min lari məbləğində girov müqabilində azadlığa buraxılıb.

T.Abazov öz istəyi ilə vəzifəsindən istefa verib. Fevralın 14-də onun səlahiyyətlərinə xitam verilib.

## SALOME ZURABİŞVİLİ DƏMYƏ GORARXI VƏ ƏZİZKƏND KƏNDLƏRİNDƏ OLUB



Prezident Salome Zurabişvili Marneuli rayonunun Dəmyə Gorarxı kəndində olub. Dövlət başçısı kənddəki istixana təsərrüfatı ilə və orada çalışan insanlarla tanış olub.

S.Zurabişvili Kvemo Kartlidə kənd təsərrüfatının inkişafı ilə maraqlanıb və bölgənin inkişafında kiçik biznesin əhəmiyyətini vurğulayıb.

Dəmyə Gorarxı kəndindəki istixana təsərrüfatı 2014-cü ildə istifadəyə verilib. İstixanalar 2 hektar sahədə yaradılıb və istehsal gücü ildə 300-400 ton tərəvəz təşkil edir.

Prezident həmçinin Əzizkənd kəndinə də baş çəkib. Burada o, dövlətin dəstəyi ilə açılan "Mza Çitili" MMC-nin istixana təsərrüfatı ilə tanış olub. 30 nəfərin çalışdığı təsərrüfatın məhsulları yerli bazarda satışa çıxarılır. Müəssisənin yaradılmasına, ümumilikdə, 1,5 milyon dollardan çox vəsait xərclənib.

## İNSAN HÜQUQLARININ TƏDRİS VƏ MONİTORİNQ MƏRKƏZİ MARNEULİ RAYONUNUN İCRA HAKİMİYYƏTİNİ VƏ BƏLƏDİYYƏSİNİ MƏHKƏMƏYƏ VERİB

Gürcüstanda fəaliyyət göstərən İnsan Hüquqlarının Tədris və Monitorinq Mərkəzi (EMC) Marneuli rayonunun icra hakimiyyətini və bələdiyyəsini məhkəməyə verib.

Məhkəmə şikayətində bildirilib ki, Marneuli rayon rəhbərliyi yerli ictimaiyyət üçün nəzərdə tutulmuş məlumatların Azərbaycan dilinə tərcüməsini təmin etmir.

Mərkəzdən qeyd olunub ki, Marneuli rayonunun rəhbər qurumları yerli sakinlərin onlara ünvanladıqları məktub, ərizə və şikayətləri gürcü dilində qəbul edir, həmçinin cavab məktublarının Azərbaycan dilinə tərcüməsini həyata keçirmir.

EMC Marneuli rayon rəhbərliyini Gürcüstan qanunvericiliyini və ölkənin milli azlıqlarının hüquqlarının təmin olunması ilə bağlı qoşulduğu beynəlxalq konvensiyalardan irəli gələn öhdəlikləri pozmaqda ittiham edib.

Məhkəməyə ünvanlanmış şikayətdə bildirilib ki, Marneuli rayonunun rəhbər qurumları azərbaycanlıların hüquqlarını pozaraq onların ölkənin sosial, siyasi və mədəni həyatından təcrid olunmasına şərait yaradır.

EMC Marneuli rayon rəhbərliyini azərbaycanlıların öz ana dillərində təqdim etdikləri müraciətlərin gürcü, onlara cavab məktublarının isə Azərbaycan dilinə tərcüməsini təmin etməyə çağırıb.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN LEMŞVENİERA KƏNDİNDƏ MƏRKƏZİ SU REZERVUARINDA APARILAN İŞLƏR BİTMƏK ÜZRƏDİR

Qardabani bələdiyyəsinin Lemşveniera kəndində mərkəzi içməli su rezervuarında aparılan işlər yekun mərhələdədir. Qardabani meri Ramaz Budağaşvili tikinti işləri ilə yaxından tanış olub, Lemşveniera sakinləri ilə görüşərək onların problemləri ilə də maraqlanıb.

Layihəyə əsasən əsas və daxili borular çəkilib, həmçinin su sayğaçları quraşdırılıb.

Layihə regional fonddan maliyyələşir və onun dəyəri 1 150 000 laridir. İşlər başa çatdıqdan sonra əhaliyə içməli su bərabər şəkildə veriləcək və suyun verilməsi keyfiyyəti yaxşılaşdırılacaq.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 MART 2019-CU İL/ №006 (86)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN İQTİSADİYYATI 2018-Cİ İLDƏ 4,7% ARTIB




Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, Gürcüstan iqtisadiyyatı 2018-ci ildə 4,7% artıb.

Göstəricilərə əsasən, 2018-ci ildə ümumi daxili məhsulun həcmi cari qiymətlərlə 41077.5 milyon larini təşkil edib. Bu isə ötən ilin analoji dövrünün göstəricisi ilə müqayisədə 8,5% çoxdur. Ümumi daxili məhsulun real artımı isə 2018-ci ildə ötən illə müqayisədə 4,7%, deflatorun faiz dəyişikliyi isə 3,6% müəyyən edilib.

Statistika Xidmətinin məlumatına görə, ümumi daxili məhsulun sahə strukturunda ən böyük hissə ilə ticarət (17,0%) və sənayeçilik (17,0%) seçilir. Daha sonrakı mövqeləri nəqliyyat və kommunikasiya (10,2%) tutur. Tikinti (9,3%), dövlət idarəçiliyi (8,2%), kənd təsərrüfatı, balıqçılıq (7,7%), daşınmaz əmlak əməliyyatları, icarə və istifadəçiyə xidmət göstərilməsi (7,4%), sağlamlığın mühafizəsi və sosial yardım (5,8%).

Statistika Xidmətinin məlumatına əsasən, artım qeydə alınan sahələr: Maliyyə işləri (13,5%), kommunal, sosial və personal xidmətin göstərilməsi (13,2%), daşınmaz əmlak əməliyyatları, icarə və istifdəçiyə xidmət göstərilməsi (12,1%), mehmanxanalar və restoranlar (9,7%), nəqliyyat (9,4%), dağ sənayeçiliyi (7,6%), sağlamlığın mühafizəsi və sosial yardım (6,2%), ticarət; avtomobil, məişət istehsalı və şəxsi istifadə əşyalarının təmiri (5,9%), əlaqə vasitələri (5,8%). Tikinti sektorunda isə 3,1% azalma qeydə alınıb.

## BTQ DƏMİR YOLUNUN İLK SƏRNİŞİN QATARI TEST OLUNUB




Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edəcək ilk sərnişin qatarı martın 28-i axşam saatlarında Gürcüstandan Azərbaycana yola düşüb.

İsveçrənin "Stadler" şirkətinin istehsalı olan 10 vaqondan ibarət qatar martın 24-dən 28-dək Gürcüstanın dəmir yollarında test olunub.

Qatar 9 yataqlı vaqon və 1 yeməkxana vaqonundan ibarətdir. Vaqonlar fiziki imkanları məhdud şəxslər üçün də adaptasiya olunub.

Qeyd edək ki, sərnişin qatarı İsveçrədən Türkiyəyə martın 23-də, Türkiyədən Gürcüstana isə martın 24-də çatdırılıb.

Xatırladaq ki, "Stadler" ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında bağlanmış müqaviləyə əsasən BTQ üçün, ümumilikdə, 30 vaqon hazırlanacaq.

## TBİLİSİDƏ "AZƏRBAYCAN PAYIZI" FESTİVALI KEÇİRİLƏCƏK



Tbilisi şəhərində bu il "Azərbaycan payızı" festivalı keçiriləcək. Bu barədə Tbilisi sakrebulosunun majoritar deputatı Rima Beradze bildirib.

R.Beradzenin bildirdiyinə əsasən, festival payız aylarının birində şəhərin Çuqureti rayonunda yerləşən "Bakı" küçəsində təşkil olunacaq. "Azərbaycan payızı" festivalı Gürcüstan paytaxtında ilk dəfə baş tutacaq. Festival iştirakçıları Azərbaycanın zəngin mədəniyyəti, adət-ənənələri və mətbəxi ilə tanış ola biləcəklər.

Qeyd edək ki, Tbilisidə dost ölkələrə həsr olunmuş festivalların keçirilməsi ənənəsi 2016-cı ildən davam etdirilir. Ötən ilin may ayında şəhərin Kiyev küçəsində "Ukrayna baharı" festivalı keçirilib.

## KVEMO KARTLİ BÖLGƏSİNDƏ TƏBİİ ARTIM AZALIB



Ötən il Kvemo Kartli bölgəsində təbii artım 1654 nəfər təşkil edib. Bu barədə Gürcüstanın Milli Statistika İdarəsinin illik hesabatında bildirilib.

İllik müqayisədə bölgədə təbii artımda 688 nəfər və ya 29,3% azalma qeydə alınıb.

2018-ci ildə Gürcüstanda təbii artım illik müqayisədə 15,7% azalaraq 4614 nəfər təşkil edib.

Hesabat ilində Kvemo Kartli bölgəsində nikah və boşanmaların sayı müvafiq olaraq 2666 və 994 təşkil edib.

Ötən il Gürcüstan üzrə nikahların ümumi sayı 23202, boşanmaların ümumi sayı isə 10288 olub.

## STATİSTİKA XİDMƏTİ: KİŞİLƏRİN ƏMƏK HAQQI QADINLARIN ƏMƏK HAQQINDAN ARTIQDIR



Milli Statistika Xidməti 2018-ci ilin 4-cü rübünün əmək haqlarının statistikasını yayımlayıb. Rəsmi göstəricilərə əsasən, hesabat dövründə Gürcüstanda orta aylıq əmək haqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 61.1 lari artaraq 1202 lari təşkil edib.

Statistika Xidmətnin məlumatına görə, kişilərin əmək haqqı, demək olar ki, bütün sektorlarda qadınların əmək haqqından artıqdır. Ötən ilin 4-cü rübündə qadınların orta əmək haqqı 906 lari, kişilərin isə 1468.5 lari təşkil edib. Əmək haqqının illik artımı isə müvafiq olaraq 46.5 və 81.1 lari təşkil edib.

## MİRZƏ FƏTƏLİ AXUNDOV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİNİN DİREKTORUNA FƏXRİ AD VERİLİB



Tbilisidə yerləşən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru Leyla Əliyeva fəxri ada layiq görülüb.

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Mixeil Giorqadze muzeyə baş çəkərək, L.Əliyevaya "Gürcüstanın incəsənət xadimi" fəxri adını və qızıl döş nişanını təqdim edib.

Nazir müavini bildirib ki, L.Əliyeva bu fəxri ada Gürcüstan və Azərbaycan arasındakı münasibətlərə verdiyi töhfəyə görə layiq görülüb.

Muzey direktoru onun fəaliyyətinə dövlət səviyyəsində verilən yüksək qiymətə görə minnətdarlığını bildirib.

Qeyd edək ki, L.Əliyeva 2008-ci ildən M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktorudur. Ona 2017-ci ilin mart ayında Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bakiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.